XalqBank

# XalqOnline Mobil Bankçılıq

İstifadəçi təlimatı (Fiziki şəxslər)

# Mündəricat


**1. Qeydiyyat və giriş**
- 1.1. Ön giriş səhifəsi
- 1.2. Qeydiyyat
- 1.3. Giriş

**2. Əsas səhifə**
- 2.1. Əsas səhifə tərkibi
- 2.2. Ayarlar
- 2.3. Əsas səhifə ayarları
- 2.4. Bildirişlər

**3. Kartlar**
- 3.1. Kart tarixçəsi
- 3.2. Kart balansını artırmaq
- 3.3. Kart ayarları

**4. Hesablar**
- 4.1. Hesabın rekvizitləri
- 4.2. Hesabdan çıxarış

**5. ƏDV Geri al**

**6. Kreditlər**

**7. Əmanətlər**

**8. Dövri ödənişlər**

**9. Sığorta**

**10. Valyuta məzənnələri**

**11. Ödənişlər**

**12. Köçürmələr**
- 12.1. Ani Ödənişlər Sistemi
- 12.2. Kartdan karta köçürmə
- 12.3. Kartdan hesaba/Hesabdan karta
- 12.4. Hesabdan hesaba
- 12.5. Konvertasiya
- 12.6. Beynəlxalq ödəniş
- 12.7. Rubl valyutasında köçürmə
- 12.8. Cash by code

**13. Şablonlar**

**14. QR ilə əməliyyatlar**
- 14.1. QR kodla ödəniş
- 12.2. QR kodla köçürmənin qəbulu

**15. Parkinq**

**16. Qiymətli kağızlar**
- 16.1. İnvestisiya hesabının açılması
- 16.2. Mənim qiymətli kağızlarım
- 16.3. Qiymətli kağızlar bazarı

**17. Ərizələr**
- 17.1. Hesab açılması
- 17.2. Kart açılması
- 17.3. Kredit üçün sorğu
- 17.4. Sığorta

**18. Bonuslar bölməsi**

**19. Əlavə bölməsi**
- 19.1. Açıq Bankçılıq
- 19.2. Tarixçə
- 19.3. Sənədlər
- 19.4. Bank xəritədə
- 19.5. Xəbərlər
- 19.6. Banka müraciət
- 19.7. Onlayn dəstək

**20. Dark/Light mode**

# Qeydiyyat və giriş

# Ön giriş səhifəsi

Bu səhifədə:

- Bankın yeniliklərini əks etdirən «hekayə»lər
- Valyuta məzənnələri
- Xəbərlər
- Bank xəritədə
- Banka müraciət
- “Qeydiyyat”/“Daxil ol” düyməsi



# Qeydiyyat (Bank müştəriləri üçün) – Mobil nömrə ilə

XalqOnline sistemində aşağıdakı qeydiyyat üsulları mövcuddur:

- Mobil nömrə ilə qeydiyyat
- Plastik kart nömrəsi ilə qeydiyyat
- Asan İmza ilə qeydiyyat

**Qeyd:** Mobil nömrə bank əməliyyat sistemində qeyd olunan nömrə olmalıdır, əks təqdirdə istifadəçi kart nömrəsi ilə qeydiyyat üsuluna yönləndirilir.




1. Mobil nömrə və FIN kod daxil edilir. E-mail ünvanı daxil edilir. (məcburi deyil) Xidmət şərtləri ilə razılıq təsdiq edilir.

2. Mobil nömrəyə göndərilən OTP SMS daxil edilir.

3.Şifrə təyin olunur və qeyd olunan tələblərə uyğun olaraq şifrənin düzgünlüyü yoxlanılır.

4. Giriş üçün pin kod təyin edilir.

# Qeydiyyat (Bank müştəriləri üçün) – Plastik kart nömrəsi ilə

Plastik kart vasitəsilə qeydiyyat zamanı istifadəçinin mobil nömrəsi bank əməliyyat sistemində təqdim olunan mobil nömrə ilə üst-üstə düşmədiyi zaman aktivləşir və aşağıdakı məlumatlar daxil edilir:

1. Mobil nömrə
2. Fin kod
3. Elektron məktub adresi (məcbur xana deyil)
4. Plastik kartın PAN nömrəsi daxil edilir və ya skan olunur
5. Xidmət şərtləri ilə razılıq təsdiq edilir



# Qeydiyyat (Bank müştərisi olmayan)

Müştəri olmayan fiziki şəxslər XalqOnline mobil tətbiqində sadəcə **telefon nömrəsi ilə** qeydiyyatdan keçə bilir. Bunun üçün aşağıda qeyd olunan məlumatları daxil etmək lazımdır:




1. Mobil nömrə və FIN kod daxil edilir. E-mail ünvanı daxil edilir. (məcburi deyil) Xidmət şərtləri ilə razılıq təsdiq edilir.

2. Mobil nömrəyə göndərilən OTP SMS daxil edilir

3.Şifrə təyin olunur və qeyd olunan tələblərə uyğun olaraq şifrənin düzgünlüyü yoxlanılır.

4. Giriş üçün pin kod təyin edilir.

# Əsas səhifə

# Əsas səhifə

Əsas səhifədə yer alan bölmələr və keçidlər:

- Ayarlar
- Əsas səhifə ayarları
- Bildirişlər
- ƏDV geri al
- Nağdsız məzənnələr
- Məhsullar (kart, hesab, kredit, depozit, sığorta)



# Əsas səhifə - Ayarlar

Ayarlar bölməsinə əsas səhifənin sol yuxarı hissəsindən profil şəklinə sıxmaqla keçid etmək olar.

**Profil şəklinin** dəyişdirilməsi və yaxud əlavə edilməsi üçün:

- Şəklin üzərinə sıxın
- “Foto çəkmək” və ya “Qalereyadan seç” seçərək şəkli əlavə edə bilərsiniz.







**Elektron məktub** ünvanının dəyişdirilməsi üçün: E-mail üzərinə sıxın, E-maili daxil edin, Yadda saxla düyməsini sıxın.

XalqOnline sistemi üzrə **şifrənin dəyişdirilməsi** üçün:

- müvafiq düyməyə sıxaraq Şifrənin dəyişdirilməsi səhifəsinə keçid edilir
- 1 dəfə köhnə şifrə, 2 dəfə isə yeni şifrə daxil olunur
- Şifrə üçün şərtlər: minimum 1 böyük hərf, 1 kiçik hərf,1 rəqəm və minimum10 simvol







**Bildirişlər**in aktiv/deaktiv edilməsi üçün buradan keçid edə bilərsiniz.

# Əsas səhifə - Təhlükəsizlik ayarları

**Təhlükəsizlik ayarlarına** keçid ilə aşağıdakı imkanlar əlçatandır.

- **Təhlükəsizlik** aktiv/deaktiv et
- **Pin kodu dəyişmək -** açılan səhifədə minimum 4 maksimum 6 rəqəm olmaqla PİN kod yaradıla bilər. Pin kod istifadəçi adı, şifrə daxil etmədən tətbiqə daxil olmağa imkan yaradır.
- **Cihazı yadda saxla** aktiv edildikdə cihazı yadda saxlayır və SMS təsdiq olmadan sistemə daxil olmağa imkan yaradır.
- **Biometriya** vasitəsilə tətbiqə giriş. Qeyd: xidmətin aktiv edilməsi üçün PİN kod aktiv edilməlidir.
- **Avtomatik kilidləmə** - Siyahıdan seçilən zaman aralığında mobil tətbiqin istifadəsiz qaldığı zaman sessiyanın deaktiv edilməsidir.






# Əsas səhifə - Əsas səhifənin ayarları

**Əsas səhifə ayarlarında** aşağıdakı imkanlar mövcuddur:

- Əsas səhifədə əks olunan bölmələrin aktiv/deaktiv edilməsi;
- Əsas səhifədə yerləşən bölmələrin sıralamasının dəyişdirilməsi;
- Bir bölmə üzrə bir neçə məhsul mövcud olduqda həmin məhsulun aktiv/deaktiv edilməsi və yerləşməsinin dəyişdirilməsi.



# Kartlar

# Kartlar – kart tarixçəsi

Əsas səhifədən seçilən kart məhsulu üzərinə sıxdıqda kart menyusu açılır və «sus» rejimində son 3 gün üzrə **Kart tarixçəsi** əks olunur. 3 ay müddətindən çox olmamaqla tarix aralığı seçilə bilər. İstənilən əməliyyatın üzərinə sıxdıqda əməliyyat haqqında ətraflı məlumat almaq mümkündür.

«Son əməliyyatlar» hissəsində işarələnmiş icon-a sıxdıqda **Xərclərim** bölməsi açılır və seçilmiş tarix aralığı üzrə kateqoriyalar ilə dairəvi diaqram şəklində xərclər əks olunur. Kateqoriya üzərinə sıxdıqda kateqoriya adı və məbləğ əks olunur.












# Kartlar – Kart balansını artırmaq

Əsas səhifədən seçilən kart məhsulu üzərinə sıxdıqda kart menyusu açılır və burada **Balansı artırmaq** əks olunur. Kart balansını 3 üsulla artırmaq mümkündür:




Kartdan artırmaq (Öz kartından)




Kartdan artırmaq (Digər kartdan)




Hesabdan artırmaq




QR kod ilə artırmaq

# Kart ayarları – Kartın Apple Pay/Google Pay-ə əlavə olunması

Kart ayarlarına keçid edərək kartı asanlıqla elektron cüzdana əlavə etmək mümkündür.



# Kartlar – Kart ayarları

**Kart nömrəsinin əks olunması** tətbiq daxilindədir.

**CVV kodun alınması** – SMS vasitəsilə göndərilir.




Kartın nağd və nağdsız əməliyyatları üzrə **istifadə limitlərinin idarə olunması** mümkündür.



# Kartlar – Kart ayarları

**SMS məlumatlandırmanın** aktiv/deaktiv edilməsi və mobil nömrənin dəyişdirilməsi




**Pin kodun** daxil edilmə **cəhdlərinin** sıfırlanması




**Pin kodun** dəyişdirilməsi



# Kartlar – Kart ayarları

Kart üzrə **məxfi sözə** baxış və dəyişdirilməsi




**Dinamik dizaynın** aktiv/deaktiv edilməsi (yalnız Rəqəmsal kartda)



# Hesablar

# Hesablar – Hesab rekvizitləri

Əsas səhifə üzərindən hesab üzrə keçid edərək müvafiq menyuya daxil oluruq. Sağ yuxarı hissədən **hesab rekvizitlərinə** keçid etmək, **çıxarışı yükləmək** və **göndərmək** mümkündür.

Hesab rekvizitləri səhifəsində yenə sağ yuxarı hissədən rekviziti **yükləmək** və **paylaşmaq** mümkündür.



# Hesablar – Hesabdan çıxarış

Əsas səhifədən müvafiq hesab üzrə keçid etdikdə susma rejimində hesab üzrə son 3 gün üzrə əməliyyatlar əks olunur. Maksimal müddəti 3 ay olmaqla çıxarış üçün tarix aralığı seçilə bilər.

Tarix seçimi edildikdən sonra sağ yuxarı hissəyə sıxmaqla çıxarışı **yükləmək** və **paylaşmaq** mümkündür.

**90 gün müddətindən** artıq dövr əhatə edən çıxarışın əldə edilməsi üçün müvafiq dövr seçilir və açılan pəncərədə elektron məktub ünvanı daxil edilir. Daxil edilmiş ünvana **pdf** və **excel formatlarında** çıxarış göndərilir.



# Hesablar – Balansı artırmaq

Hesab balansını 3 üsulla artırmaq mümkündür.







Kartdan artırmaq (Öz kartından/Digər kartdan)




Hesabdan artırmaq




QR kod ilə artırmaq

# ƏDV Geri al

# ƏDV Geri al

ƏDV geri al səhifəsinə əsas səhifədən keçid etmək mümkündür. Daxil olmaq üçün açılan səhifədə ƏDV geri al qeydiyyatı olduğu təqdirdə:

- Mobil nömrə və Fin kod daxil edilir
- Davam et düyməsi sıxılır
- SMS vasitəsilə alınan kod daxil edilərək giriş təmin olunur.

Açılan ƏDV geri al səhifəsində aşağıdaki məlumatlar əks olunur:

- Geri ödənilmiş ƏDV qalığı
- Gözlənilən məbləğ
- Çekin skan edilməsi
- Karta köçürmək
- Daxil edilmiş çeklər üzrə tarixçə və məlumat







Qəbzin sürətli skan edilməsi tab bar-da yerləşən **skan düyməsi** vasitəsilə də mümkündür.

# Kreditlər

# Kreditlər

Mövcud kredit siyahısına əsas səhifədən baxmaq mümkündür. Müvafiq kredit üzrə keçid etdikdə açılan səhifədə aşağıdakı bölmələr mövcuddur:

- Kredit üzrə məlumatlar
- Kreditin ödənilməsi
- Əməliyyat tarixçəsi

Kredit qrafikinə baxış üçün yuxarı sağ hissədəki düyməyə sıxmaq kifayətdir.



# Kreditlər – Kreditin ödənilməsi

**Kredit ödənişi** üçün keçid etdikdə kredit növündən asılı olaraq birbaşa ödəniş səhifəsinə və yaxud Ödənişlər bölməsinə keçid edilir.




Ödənişlər bölməsindən keçid etməklə




Kreditin ödənilməsi hissəsindən keçid




Kart və hesabdan ödəniş imkanı




Hesabdan ödəmək




Digər kartdan ödəmək

# Əmanətlər

# Əmanətlər

Mövcud əmanət siyahısına əsas səhifədən baxmaq mümkündür. Müvafiq məhsul üzrə keçid etdikdə açılan səhifədə əmanət üzrə tarixçəni izləmək olar. Əmanət üzrə aşağıdakı məlumatlar əks olunur:

- Əmanətin ilkin məbləği;
- Əmanətin cari məbləği;
- Faiz dərəcəsi;
- Hesablanmış faizlər;
- Əmanət müddəti.






# Dövri ödənişlər

# Dövri ödənişlər

Dövri ödənişin yaradılması üçün Əməliyyatlar «Şablonlar» şablon üzərinə sıxaraq yaratmaq mümkündür. Açılan səhifədə aşağıdakı məlumatlar daxil edilərək **dövri ödəniş yaratmaq** mümkündür:

- Dövri ödənişin adı;
- Başlama və bitmə tarixləri;
- Silinmə tezliyi;
- Aylıq və həftəlik seçimdən asılı olaraq təqvim və yaxud həftənin günü;
- Məbləğ.



# Sığorta

# Sığorta

Əsas səhifədə istifadəçi üzrə Xalq Sığortada aktiv olan **sığorta şəhadətnamələri** və onlar haqqında məlumat yer almışdır. Bölmə üzrə istənilən şəhadətnamə üzərindən keçid etdikdə sığorta şəhadətnamələrinin siyahısı açılır. Şəhadətnamə üzrə keçid etdikdə ətraflı məlumat əldə etmək, **PDF formatında** polisi yükləmək mümkündür.















**Qeyd:** Sığorta şəhadətnaməsinin sifarişi üzrə ətraflı məlumat “Ərizələr” bölməsində izah olunub.

# Məzənnələr

# Valyuta məzənnələri

Əsas səhifədə **nağdsız valyuta məzənnələri** əks olunmuşdur. Buradan **məzənnə arxivinə** keçid, **tarix aralığını** dəyişmək və **valyuta konvertoruna** keçid etmək mümkündür.




Məzənnə arxivinə keçid etmək və daha geniş müddət üçün tarix aralığını dəyişmək mümkündür.




Valyuta konvertoruna keçid etməklə bir çox məzənnələr üzrə hesablama aparmaq mümkündür.

# Ödənişlər

# Ödənişlər

Aşağı paneldən Əməliyyatlar --- Ödənişlər bölməsinə keçid edə bilərsiniz. Burada müxtəlif kateqoriyalar üzrə ödənişləri həyata keçirmək mümkündür. Bütün kateqoriyalara keçid üçün Hamısı düyməsi sıxılaraq baxmaq olar. Siyahı daimi olaraq yenilənir.












# Köçürmələr

# Ani ödənişlər sistemi və Kartdan karta köçürmə

**Ani ödənişlər sistemi** heç bir vaxt məhdudiyyəti olmadan, ölkədaxili milli valyutada olan köçürmələrin saniyələr ərzində aparılmasını təmin edən sistemdir.

Ayarlar bölməsi vasitəsilə mümkündür:

- Aliasları idarə etmək
- Mövcud aliasa əlavə olunan hesab/kart idarə edilməsi

**Kartdan karta köçürmə**

- **Öz kartımdan** alt bölməsi ilə digər və öz digər bankdaxili kartıma köçürmə
- **Digər kartdan** alt bölməsi ilə digər bank kartından öz kartımın balansının artırılması






# Kartdan hesaba köçürmə və Hesabdan karta köçürmə

**Öz kartımdan** alt bölməsi ilə digər və öz digər bankdaxili hesabıma köçürmə




**Digər kartdan** alt bölməsi ilə digər bank kartından öz balansımın artırılması




**Hesabdan karta** köçürmə



# Hesabdan hesaba köçürmə

**Öz hesabına** alt bölməsi ilə öz hesablarım arasında köçürmə




**Digər hesaba** alt bölməsi ilə **ölkədaxili** digər hesablara köçürmə



# Konvertasiya və Beynəlxalq valyutada ödəniş

## Konvertasiya




## Beynəlxalq valyutada ödəniş



# Rubl valyutasında köçürmə












# Cash by code

Aşağıdakı proseslər icra olunur:

- Vəsaitin silinəcəyi kart və məbləğ qeyd olunur
- Əməliyyat təsdiqləndikdən sonra ekranda **Kod 1**, SMS vasitəsilə isə **Kod 2** göndərilir.
- Hər iki kod **ATM-də** daxil edilərək kart olmadan nağd vəsait əldə edilə bilər.












# Şablonlar

# Şablonlar

Şablon yaratmaq üçün əməliyyatlarda **Ödənişlər və Köçürmələr** bölmələrində "+" (əlavə et) düyməsinə sıxmaqla və yaxud müvafiq Ödəniş və yaxud Köçürmə səhifəsində **“Şablonu yadda saxla”** düyməsini aktivləşdirərək etmək mümkündür. Yaradılmış şablon siyahısına Əməliyyatlar bölməsinin sonunda baxa bilərsiniz.

Şablon üzərinə sıxmaqla aşağıdakıları etmək mümkündür:

- Dövri ödəniş yaratmaq
- Əsasında yaratmaq
- Silmək



# QR ilə əməliyyatlar

# QR ilə əməliyyatlar

QR kodla ödəniş




QR kodla köçürmənin qəbulu

**Qeyd:** *QR ödəniş funksionallığı Mərkəzi Bankın Ani Ödənişlər Sistemi (AÖS) infrastrukturuna əsaslanır.*

# QR ilə əməliyyatlar (QR ilə ödənişlər)

**QR ilə ödəniş** üçün Əsas səhifədə və ya aşağı paneldə yerləşən skaner işarəsinə toxunulur.

- Ödəniş (kassa, mağaza və s.) və yaxud köçürmə üçün (digər şəxsə) təqdim olunan **QR kod** skan edilir.
- Mənbə seçilir, Məbləğ daxil edilir və ödəniş icra olunur.




**Qeyd:** *QR ödəniş funksionallığı Mərkəzi Bankın Ani Ödənişlər Sistemi (AÖS) infrastrukturuna əsaslanır.*

# QR ilə əməliyyatlar (QR kodla köçürmənin qəbulu)

*Sabit məbləğ ilə:*

- **"QR yarat"** bölməsinə keçid edilir.
- Vəsaitin qəbulu üçün **mənbə** seçilir.
- **Məbləğ** daxil edilir
- QR formalaşdır düyməsi sıxılaraq **QR kod yaradılır** (müddəti 2 dəqiqə)
- Qarşı tərəf bu kodu skan edərək ödənişi edir.

*Müddətsiz QR kod ilə: Məbləğ daxil etmədən* əməliyyatın icrası üçün seçilmiş mənbə (hesab/kart) üzrə “Paylaş” düyməsinin sıxılması kifayətdir




**Qeyd:** *QR ödəniş funksionallığı Mərkəzi Bankın Ani Ödənişlər Sistemi (AÖS) infrastrukturuna əsaslanır.*

# Parkinq ödənişləri

# Parkinq ödənişləri

**Parkinq ödənişi** üçün **Skaner** işarəsindən və yaxud **Ödənişlər** bölməsindən keçid etmək mümkündür.

Açılan səhifədə:

- **Barkod** skan edilir və yaxud manual daxil edilir
- Müvafiq **parkinq ərazisi** seçilir
- Ödəniş mənbəyi seçilir
- Təsdiq olunur



# İnvestisiyalar

# İnvestisiya hesabının açılması

Addımlar aşağıda göstərilən ardıcıllıqla yerinə yetirilir:




1.İstifadəçi **Qiymətli kağızlar** düyməsini sıxır.




2.**İnvestisiya hesabı açmaq** bölməsi seçilməklə prosesə başlanılır.




3.Müvafiq sənədlər doldurularaq əlavə edilir.




4.Asan İmza vasitəsilə ərizə təsdiq edilərək banka göndərilir.

# Qiymətli kağızların alınması

Addımlar aşağıda göstərilən ardıcıllıqla yerinə yetirilir:

1.**Qiymətli kağız üzrə məlumat** ilə tanış olduqdan sonra almaq düyməsi sıxılır.

2.**Qiymətli kağız alışı bölməsindən** isə vəsaitin silinəcəyi hesab seçilərək qiymətli kağızın **alış qiyməti, valyutası, sayı, məbləğ, müraciətin etibarlılıq müddəti** məlumatları daxil edilərək davam edilir.

3. **Müraciətiniz müvəffəqiyyətlə qəbul edildi.**









# Qiymətli kağızların satışı.

Addımlar aşağıda göstərilən ardıcıllıqla yerinə yetirilir:




1.**Mənim qiymətli kağızlarım** bölməsindən alınmış olan qiymətli kağızların siyahısını görür.




2.Müştəri satmaq istədiyi qiymətli kağızı seçərək **satmaq** düyməsinə sıxır.




3.Vəsaitin qəbul olunacağı hesab seçilir və imzalanır.

# Ərizələr

# Hesabın açılması üçün sorğu

Hesabın açılması üçün əməliyyatlarda **Ərizələr** hissəsindən və yaxud Əsas Səhifədə **Hesablar** bölməsindən "+" (əlavə et) düyməsinin köməyi ilə keçid etmək mümkündür *(bir və yaxud bir neçə hesab mövcuddursa bu düymə siyahının sonunda yerləşir).*




1. **Asan Finans** məlumatlarının alınmasına razılıq verilir

2. **Valyuta seçimi** (birdən çox seçilə bilər).

3. **Filial seçimi**

4. **Vergi identifikasiyası** üzrə sualların cavablandırılması

5. **Müştəri sorğusu** sualların cavablandırılması

# Kart sifarişi üçün sorğu (Rəqəmsal kart sifarişi)

Kart sifarişi üçün əməliyyatlarda **Ərizələr** hissəsindən və yaxud əsas səhifədə **Kartlar** bölməsindən "+" (əlavə et) düyməsinin köməyi ilə keçid etmək mümkündür *(bir və yaxud bir neçə kart mövcuddursa bu düymə siyahının sonunda yerləşir).* Xidməti şərtləri ilə razılıq bildirildikdən sonra “Rəsmiləşdir” düyməsi sıxılır və kart sifarişə göndərilir. Kart tətbiqdə bir neçə dəqiqə ərzində aktivləşir.



# Kart sifarişi üçün sorğu (Plastik kart sifarişi)

Açılan səhifədə aşağıdakı addımlar atılır:

- Asan Finans məlumatların alınmasına və Tarif və Şərtlər ilə razılıq verilir
- Çatdırılma haqqında məlumat
- İstifadə müddəti
- Kartın valyutası
- Filial seçimi
- Ödəniş növü və mənbəyi seçilir
- Şəxsiyyəti təsdiq edən sənəd əlavə olunur

Təsdiqlədikdən sonra açılan səhifədə və yaxud Sənədlər bölməsindən ərizəni imzalamaq mümkündür



# Kredit üçün sorğu

Kredit sifarişi üçün Əməliyyatlarda **Ərizələr** hissəsindən və yaxud Əsas Səhifədə **Kreditlər** bölməsindən "+" (əlavə et) düyməsinin köməyi ilə keçid etmək mümkündür *(bir və yaxud bir neçə kredit məhsulu mövcuddursa bu düymə siyahının sonunda yerləşir).*




1. Müvafiq kredit məhsulu seçilir

2. **Kredit bürosu və Asan Finans** sistemindən məlumatların alınmasına və emalına razılıq bildirilir.

3. Müvafiq **filial** seçilir və **Sifariş et** düyməsi sıxılır

4. Təsdiqləndikdən sonra açılan səhifədə və yaxud Sənədlər bölməsindən ərizəni imzalamaq mümkündür

# Sığorta üçün sorğu

Sığortaya Əməliyyatlarda **Ərizələr** hissəsindən və yaxud Əsas Səhifədə **Sığorta polisi** bölməsindən "+" (əlavə et) düyməsinin köməyi ilə keçid etmək mümkündür *(bir və yaxud bir neçə sığorta məhsulu mövcuddursa bu düymə siyahının sonunda yerləşir).*



















1. Müvafiq sığorta məhsulu seçilir

2. **İstifadə qaydaları** ilə razılıq bildirilir

3. Müvafiq məlumatlar daxil edilərək sifariş verilir

# «Bonuslar» bölməsi

# Bonuslar bölməsi

Bonuslar bölməsində aşağıdaki məlumatlar yer almışdır:

1. **Kart üzrə məlumat** (bitmə tarixi, şifrələnmiş Pan)
2. **Cari balans** (Petrol kartı: oil balans, hesablanmış oil, qalığa faiz; Cashback kartı: hesablanmış cashback, qalığa faiz)
3. **Partnyor siyahısı**
















Hər hansı bir **XalqKart məhsulu** yoxdursa, bu bölmədə yerləşən sifariş bölməsindən əldə etmək mümkündür.

Kart üzərinə sıxmaqla **Tarixçəyə** keçmək mümkündür.Burada müvafiq xərci və həmin xərc üzrə hesablanmış **keşbek/oil** məbləğini görmək mümkündür

Partnyor siyahısı:

- **Partnyor axtarışı** və **filtri**
- Partnyor üzrə ətraflı məlumat

# Açıq bankçılıq

# Açıq Bankçılıq

**Ənənəvi bankçılıq** sistemlərində müştərilərin hesab məlumatlarına giriş hüququ yalnız onların banklarına məxsusdur. **Açıq bankçılıq** prinsiplərinə görə isə banklar müştəri məlumatlarının saxlanılması qismində iştirak etməklə, yalnız bank müştərilərinin icazəsi müqabilində maliyyə məlumatlarının etibarlı yol ilə 3-cü tərəf rəqəmsal platformalarda görünməsini və əməliyyat apara bilmələrini təmin edir.




- XalqOnline Əlavə bölməsindən keçid etməklə Açıq Bankçılıq menyusu əlçatandır. Burada daxil olan sorğular **Təsdiq edildi, İmtina edildi və Təsdiq gözləyir** statuslarında əks olunur.

- «Təsdiq gözləyir» statusunda olan sorğunu:

1. Üzərinə sıxmaqla təsdiq edirik
2. Açılan səhifədə sorğunun bitmə tarixini seçirik
3. İcazə veriləcək məhsulları seçirik

- Təsdiq et düyməsi sıxıldıqda icazənin imzalanması səhifəsi açılır. **Sima və Asan imza** ilə imzalamaq mümkündür. Həmçinin Davam et düyməsi sıxıldıqda sənədi sonradan Sənədlər bölməsindən imzalana bilər.

# Tarixçə

# Tarixçə

**Tarixçə** bölməsinə keçid etməklə XalqOnline daxilində plastik kartlarla icra olunan əməliyyatların izlənməsi mümkündür. Burada həmçinin xərclərin vizual izlənməsi üçün diaqram yer almışdır. Diaqram verilmiş tarix aralığına görə dəyişir. Həmçinin hər bir əməliyyatın **çap formasına baxmaq və “Əsasında yarat”** düyməsi vasitəsi ilə asanlıqla yeni sənəd yaratmaq mümkündür



# Sənədlər

# Sənədlər

- **Sənədlərə** keçid etməklə verilən vaxt aralığı üçün sənədləri görmək mümkündür. Sənədləri tarixlərinə, status və növünə görə filtr etmək mümkündür.
- Sənəd üzərinə sıxmaqla açılan opsiya siyahısında sənədi gücləndirilmiş imza **(Asan, Sima imza)** ilə imzalamaq mümkündür.
- Sənədlər üzərinə sıxmaqla imza ilə yanaşı sadalanan əməliyyatların icrası mümkündür: **çap formasına baxmaq, əsasında yarat, düzəliş etmək, silmək**


















# Bank xəritədə

# Bank xəritədə




Bankın xidmət şəbəkəsi haqqında ətraflı məlumat alınması üçün **Bank xəritədə** bölməsinə keçid edilir.

**Filial və bankomatları** istər siyahıdan, istərsə də xəritə üzərindən sıxmaqla seçmək mümkündür. Seçdikdən sonra sağ yuxarı hissədə istiqamətləndirmə düyməsi vasitəsi ilə xəritə üçün nəzərdə tutulmuş digər tətbiqlərdə (Google Maps, Waze və s.) marşrutu açmaq mümkündür.







ATM – ləri **xidmət və valyuta növünə** görə filtr etməklə axtarışı daha rahat etmək mümkündür.

# Xəbərlər

# Xəbərlər

**Digər** bölməsinə keçid etməklə bankla bağlı xəbərləri, yenilikləri, həmçinin kampaniyalar barədə məlumat almaq mümkündür



# Banka müraciət/Onlayn dəstək

# Banka müraciət/Onlayn dəstək

**Banka müraciət** bölməsinə keçid edilir. Aşağıdakı məlumatlar daxil edilərək müraciət banka ünvanlanır:

- Mövzu
- Əlaqə üçün email
- İsmarıc mətni
- Fayl əlavə olunması (makisumum həcmi 6 mb)







**Onlayn dəstək** bölməsinə keçid edilir. Bankın rəsmi messencerlərinə və sosial şəbəkə hesablarına keçid etmək mümkündür.



## «Qaranlıq» rejimi

# Qaranlı qrejimi (Dark Mode)

Mobil tətbiqin interfeysinin tərtibatında **Light Mode** ilə yanaşı **Dark Mode** mövcuddur. Tətbiq mobil telefonun menyusunun rejimindən asılı olaraq avtomatik şəkildə aktivləşir.

